# "Azərbaycan ikinci böyük qələbəsinə imza atdı"

"Düşmən bir daha Azərbaycanın gücünü gördü. Onlar başa düşdülər ki, Azərbaycanla oyun oynamaq olmaz. Bütün bunların nəticəsi göz qabağındadır. Onlar yalvara-yalvara təslim olmaqla yanaşı, bütün dünyada rəzil oldular".

Bu sözləri türkiyəli ictimai xadim, "EkoAvrasiya" Fondu İdarə Heyətinin sədri, "EkoAvrasiya" jurnalının baş redaktoru Hikmət Eren deyib.

Baş redaktor qeyd edib ki, Prezident İlham Əliyev dəfələrlə çıxışlarında qarşı tərəfi silahı



yerə qoymağa çağırsa da, onlar tam başqa xülyalarla yaşayırdılar, buna əhəmiyyət verməkistəmirdilər: "Başa düşmürdülər ki, Azərbaycan bir günün içində Xankəndiyə daxil ola bilər. Onların əməliyyatların bir günü başa çatmamış təslim olmaları göstərdi ki, düşmən hansı rəzil durumdadır".

H. Eren vurğulayıb ki, separatçıların zərərsizləşdirilməsi ilə bağlı Azərbaycanın atdığı addımları heç kim qınaya bilməz. Azərbaycan öz ərazilərində separatçılara qarşı tədbirlər gördü. "Bu, beynəlxalq hüquqda rəsmi Bakının haqlı olduğunu göstərir. Qardaş Azərbaycan Vətən müharibəsindən sonra ikinci böyük qələbəsinə imza atdı. Türkiyənin mənəvi-psixoloji və beynəlxalq dəstəyi Azərbaycanın apardığı haqlı tədbirlərə böyük stimul oldu. Bu dəfə də Müzəffər Ali Baş Komandan İlham Əliyev adını tarixə qızıl hərflərlə yazdırdı. Allah şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə isə şəfalar diləyirəm", - deyə türkiyəli ictimai xadim əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 23 sentyabr.- S.5.